

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 204 (21.105)

25 oktyabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilmanı qəbul edib.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman Bakıda keçirilən "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu" mövzusunda beynəlxalq konfransın Avropa ölkələri hakimləri arasında dialoqun inkişaf etdirilməsi və Azərbaycanda məhkəmə sisteminin daha da təkmilləşdirilməsi baxımından önəmini qeyd etdi.

Strasburqa son səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı ölkəmizin xüsusilə Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə Avropanın müvafiq qurumları ilə fəal əməkdaşlıq etdiyini dedi və Azərbaycanda keçirilən mühüm beynəlxalq tədbirlərin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev bu baxımdan "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu" mövzusunda beynəlxalq konfransın əlaqələrin genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə Azərbaycan ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





Oktyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunun iştirakçıları ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlamış, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunun qədim türk torpağı olan Naxçıvanda keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində muxtar respublika 23 ildir, blokada şəraitində yaşayır. Lakin buna baxmayaraq, muxtar respublikanın iqtisadi inkişafı təmin edilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 90-cı illərində ölkəmizin inkişafına məhz muxtar respublikadan başladığını bildirən Ali Məclisin Sədri Naxçıvanın Türk dünyasının qapısı kimi mühüm strateji mövqedə yerləşdiyini diqqətə çatdırmışdır.

Muxtar respublikanın mövcud iqtisadi potensialı, elm, təhsil, səhiyyə, turizm və informasiya texnologiyalarının tətbiqi sahəsində görülən işlər haqqında qonaqlara ətraflı məlumat verən Ali Məclisin Sədri demişdir ki, bu gün muxtar respublikada daxili tələbatın yerli istehsal hesabına ödənilməsi diqqət mərkəzində saxlanılır. Sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait, güzəştli şərtlərlə kreditlərin verilməsi özəl bölmənin inkişafına təkan vermişdir. Hazırda muxtar respublikada iqtisadi inkişafın əsas göstəricisi hesab edilən ərzaq təhlükəsizliyi tam təmin olunmuşdur.

Ali Məclisin Sədri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunun işinə uğurlar arzulamışdır.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov forumun yüksək səviyyədə təşkilinə görə qonaqlar adından minnətdarlıq etmiş, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının 2009-cu ildə Naxçıvanda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşü zamanı yaradıldığını xatırlamışdır. Əməkdaşlıq şurasının fəaliyyəti barədə ətraflı məlumat verən Ramil Həsənov muxtar respublikanın 90 illik yubileyi çərçivəsində keçirilən bu tədbirin səmərəli olacağını bildirmişdir.

Türkiyə Palatalar və Birjalar Birliyinin prezidenti Rıfat Hisarcıklıoğlu muxtar respublikanın yaradılmasının 90 illik yubileyi münasibətilə Ali Məclisin Sədrini təbrik etmiş, Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm rolu olduğunu diqqətə çatdırmış, muxtar respublikanın dinamik inkişafının məmnunluq doğurduğunu bildirmişdir.

Görüşdə Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Qırğızıstan Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev, Qazaxıstan Beynəlxalq Ticarət Palatasının İdarə Heyəti sədrinin müavini Abdulla Kundakbayev və Qazaxıstan İşəgötürənlər Konfederasiyasının İdarə Heyətinin sədri Kadır Baykenov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunun üzv dövlətlər arasında mövcud olan qarşılıqlı faydalı əməkdaşlığa töhfə verəcəyini vurğulamışlar.

Sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov əməkdaşlıq şurasının rəsmi gerbini Ali Məclisin Sədrinə təqdim etmiş, xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# İranın Qərbi Azərbaycan Vilayətinin nümayəndə heyəti Naxçıvanla tanış olmuşdur

***Oktyabrın 23-də Naxçıvan Muxtar Respublikasına ikigünlük səfərə gələn İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadətin rəhbərlik etdiyi nümayəndə heyəti muxtar respublikanın tarixi abidələri, mədəniyyət, təhsil, səhiyyə və istehsal müəssisələri ilə tanış olmuşdur.***



Səfərin ilk günündə qonaqlar Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüş, Heydər Əliyev Muzeyini ziyarət etmişlər. Burada qonaqlara məlumat verilmişdir ki, ulu öndər Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində muxtar respublikanın inkişafına həssaslıqla yanaşmış, ötən əsrin 90-cı illərində burada yaşayıb fəaliyyət göstərərək Naxçıvanı işğal təhlükəsindən xilas etmişdir. Həmin dövrdə blokada vəziyyətinə salınmış muxtar respublikanın qonşu ölkələrlə, o cümlədən İran İslam Respublikası ilə qarşılıqlı əlaqələrinin yaradılmasında mühüm addımlar atılmış, ikitərəfli əlaqələr qurulmuşdur. Muzeydə ulu öndər Heydər Əliyevlə İran İslam Respublikasının ali vəzifəli şəxsləri arasında həmin dövrdə imzalanmış rəsmi sənədlər, habelə qarşılıqlı görüşlər zamanı çəkilmiş fotoşəkillər nümayiş etdirilir.

Qonaqlar muzeydə ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini özündə əks etdirən eksponatlarla tanış olmuşlar.

Nümayəndə heyəti həmin gün Naxçıvan Biznes Mərkəzində olmuş, muxtar respublikada istehsal olunan məhsullardan ibarət guşələrə baxmışdır. Bildirilmişdir ki, mərkəzin əsas fəaliyyət sahəsi sahibkarların maarifləndirilməsi, iş adamlarına ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar, dünya və ölkə iqtisadiyyatındakı yeniliklər, sahibkarların yeni iş təcrübələri, marketinq fəaliyyəti, reklam işi, dünya maliyyə sistemindəki vəziyyət və dəyişikliklər barədə məlumat verməkdir. Hazırda muxtar respublikada 350 növdə məhsul istehsal olunur. Yeni yaradılan müəssisələr əhalinin 336 növdə məhsula olan tələbatını tamamilə yerli istehsal hesabına ödəmək imkanına malikdir.

Diqqətə çatdırılmışdır ki, uzun müddət blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikanın sosial-iqtisadi inkişafını əks etdirən makroiqtisadi göstəricilər son 10 ildə xeyli artmışdır.

Sonra İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətindən gələn nümayəndə heyəti "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Naxçıvan bağları" İstixana Kompleksi, "Gəmiqaya Mebel Fabriki" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərində olmuş, istehsal prosesi ilə tanış olmuşlar.

İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadət və onu müşayiət edən nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər çərçivəsində oktyabrın 24-də Naxçıvan Dövlət Universitetində olmuşdur.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali məktəbin strukturu, beynəlxalq əlaqələri, maddi-texniki bazası barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasında əlaqələrin inkişafında elm, təhsil sahəsində tərəfdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

Ardı 2-ci səhifədə

Dünyanın bir çox ölkəsi ilə beynəlxalq əlaqəyə malik olan Naxçıvan Dövlət Universiteti ilə İran İslam Respublikasının Təbriz Dövlət Universiteti, Tehran Universiteti, Azad İslam Universiteti, Zəncan Universiteti və digər ali məktəbləri arasında əməkdaşlıq vardır. Hazırda universitetdə İran İslam Respublikasından olan 16 tələbə təhsil alır.

Qonaqlar universitet ərazisini gəzmiş, Təbiətşünaslıq və kənd təsərrüfatı, Pedaqoji fakültələrin nəzdində fəaliyyət göstərən Botanika və Coğrafiya muzeyləri, Texnologiyanın tədrisi metodikası və məktəb tarixi kabinələri ilə tanış olmuş, tədris prosesi ilə maraqlanmışlar.

"Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində qonaqlara məlumat verilmişdir ki, ziyarətgahın adı "mağara sahibləri" mənasını verir. Müqəddəs "Qurani-Kərim"in "Əl-Kəhf" surəsində mağaraya sığınan 7 gəncin başına gələnlərdən bəhs edilir. Müqəddəs kitabda mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapmışdır.





Nümayəndə heyəti "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də olmuşdur. Burada qonaqlara bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, tarixin bütün dövrlərinə aid bu ərazidə zəngin mədəniyyət və memarlıq nümunələri yaradılmışdır. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. Belə abidələrin bərpası və qorunması gələcək nəsillərə Azərbaycanın qədim tarixinin çatdırılması, eyni zamanda Naxçıvana turistlərin marağının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki görkəmini itirmişdir. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanmış, tarixi ərazidə yenidənqurma işləri aparılmış, qalanın əvvəlki görkəmi özünə qaytarılmışdır. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə ötən il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır. Kompleksdə yerləşən Nuh Peyğəmbərin türbəsi də nümayəndə heyətində böyük maraq doğurmuşdur.

Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə tanışlıqdan sonra qonaqlar Duzdağ Fizioterapiya Mərkəzində olmuşlar. Qeyd edilmişdir ki, mərkəz 1979-cu ildən 50 çarpayılıq xəstəxana kimi fəaliyyət göstərir. 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılmış, yeraltı şöbə genişləndirilmiş, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunmuşdur. Dünyanın müxtəlif ölkələrindən olan bronxial-astma xəstəliklərindən əziyyət çəkən xeyli insan hər il burada müalicə olunur.

Oktyabrın 24-də İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadətin Naxçıvan Muxtar Respublikasına ikigünlük səfəri başa çatmışdır.

**"Şərq qapısı"**

# Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu keçirilmişdir

***Oktyabrın 24-də Naxçıvan şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü Toplantısı keçirilmişdir.***

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye nazirlikləri, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AzPROMO) və digər müvafiq dövlət qurumlarının dəstəyi ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən təşkil edilmiş tədbir Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuşdu.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunda Türkiyə, Qazaxıstan, Qırğızıstandan olan ticarət-sənaye palatalarının, sahibkarlar birliklərinin rəhbərləri, 75 xarici şirkətin təmsilçisi və özəl sektorun nümayəndələri, eləcə də Azərbaycanın dövlət rəsmiləri və 120-dən çox yerli sahibkar iştirak edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunun iştirakçılarını salamlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə çıxış edərək forumun işinə uğurlar arzulamışdır.

Bildirmişdir ki, türkdilli dövlətlərin müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı istiqamətində keçirilən görüşlər artıq ənənə halını almışdır. Təqdirəlayiq haldır ki, bugünkü forum Naxçıvanda bu istiqamətdə keçirilən sayca üçüncü mühüm tədbirdir.

Qeyd olunmuşdur ki, 5 il əvvəl, 2009-cu il oktyabrın 3-də Naxçıvanda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında qəbul edilən qərarlar üzv ölkələr arasında əməkdaşlığın güclənməsində mühüm rol oynamışdır. Məhz həmin tarixi toplantı zamanı imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişi bu təşkilatın yaradılmasının əsasını qoymuşdur. Ötən dövr ərzində təşkilat tərəfindən mədəniyyət, elm, texnika, təhsil, səhiyyə, turizm və iqtisadiyyat sahələrində qarşılıqlı etimada və dostluğa əsaslanan əməkdaşlıq əlaqələrinin yaradılması və inkişafı üçün əhəmiyyətli addımlar atılmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri qeyd etmişdir ki, 2012-ci il oktyabrın 5-də Naxçıvan şəhərində Türkdilli Dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının ilk iclasının keçirilməsi əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addım olmuşdur. Həmin görüşdə ticarətin inkişafı, investisiya qoyuluşları, gömrük və tranzit prosedurlarının sadələşdirilməsi barədə səmərəli müzakirələr aparılmış, bir sıra mühüm məsələlərə dair razılaşmalar əldə edilmişdir. Görüşün yekunu olaraq türkdilli dövlətlərin gömrük xidməti rəhbərləri tərəfindən "Naxçıvan bəyannaməsi" qəbul edilmişdir.

Bildirilmişdir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının biznes forumlarının təşkil edilməsi də üzv ölkələr arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi sahəsində qarşılıqlı fikir mübadiləsinin aparılması və əməli təkliflərin ərsəyə gəlməsi baxımından olduqca faydalı əməkdaşlıq formatıdır. İnanırıq ki, bu gün Naxçıvanda keçirilən növbəti biznes-forum və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü Toplantısı öz nəticələri ilə əməkdaşlıq əlaqələrinin inkişafına yeni töhfələr verəcəkdir.

"Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə 2014-cü il muxtar respublikada "Muxtariyyət ili" elan olunmuşdur. Forumun keçirilməsi Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr edilir", – deyən Müslüm Cabbarzadə əlavə etmişdir ki, uzun müddətdən bəri blokada vəziyyətində olmasına baxmayaraq, bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın sürətlə inkişaf edən regionudur. Aparılan islahatlar nəticəsində iqtisadiyyatın bütün sahələrində dinamik inkişafa nail olunmuşdur. Hazırda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri muxtar respublika iqtisadiyyatında əsas yer tutur. Qazanılan uğurlar nəticəsində enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir. Xarici iqtisadi əlaqələrin inkişafı üçün geniş imkanlar, yerli və xarici iş adamları üçün əlverişli biznes və investisiya mühiti yaranmışdır.

Əmin olduğumuzu bildiririk ki, Biznes-Forumda aparılacaq müzakirələr və iş adamları arasında keçiriləcək ikitərəfli görüşlər iqtisadi əməkdaşlıq əlaqələrinin inkişafı üçün faydalı olacaqdır.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov forumun təşkilatçılığını yüksək qiymətləndirmiş, 2009-cu ildə Naxçıvanda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılmasının tarixi hadisə olduğunu bildirmişdir. R.Həsənov 150-dən çox sahibkarın iştirak etdiyi forumun türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafına təkan, ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da şaxələnməsinə rəvac verəcəyini vurğulamışdır.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov bildirmişdir ki, keçmiş Sovetlər Birliyinin süqutundan sonra müstəqillik əldə edən Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatlar aparılmış, bazar iqtisadiyyatına əsaslanan özəl sektor yaradılmışdır. Ulu öndər Heydər Əliyev hələ ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında cəmiyyət həyatının bütün sahələrini əhatə edən inkişafın möhkəm əsaslarını yaratmışdır. Sonralar Azərbaycanın hər yerində, o cümlədən Naxçıvanda baş verən böyük yeniləşmə və inkişaf prosesləri həmin zəmin üzərində davam etdirilmişdir.

"Bu gün Naxçıvan öz inkişaf tarixinin çiçəklənmə dövrünü yaşamaqdadır. Belə ki, son 10 ildə inkişafın mühüm göstəricisi olan Ümumi Daxili Məhsul istehsalının həcmi 8,4 dəfə artaraq 2 milyard 981 milyon ABŞ dollarına çatmışdır. Sovetlər Birliyi dönəmində muxtar respublikada 40 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, bu gün həmin müəssisələrin sayı 438-ə çatmışdır. Bu müəssisələr hesabına muxtar respublikada 350 növdə məhsul istehsal olunur, 336 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir", – deyən Famil Seyidov əlavə etmişdir ki, həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin nəticəsi olaraq, dayanıqlı inkişafın təməlini təşkil edən infrastruktur tamamilə yenidən qurulmuş, təhsil, səhiyyə, nəqliyyat, energetika və digər bu kimi sahələrin inkişafına yönəldilmiş investisiyaların həcmi ildən-ilə artaraq 2013-cü ildə 1 milyard 323 milyon ABŞ dolları təşkil etmişdir. 10 mindən çox sosial-iqtisadi əhəmiyyət kəsb edən infrastruktur obyektləri istifadəyə verilmiş, muxtar respublikada təbii qaz təchizatı 100 faiz təmin edilmiş, elektrik enerjisinin ixracına nail olunmuşdur.

Qeyd olunmuşdur ki, kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinə göstərilən dövlət dəstəyi bu sahənin inkişafına ciddi dərəcədə təsir göstərmiş, məhsul istehsalı 2013-cü ildə 430 milyon ABŞ dollarına çatmışdır.

Bu gün Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payının 87 faiz təşkil etdiyini bildirən iqtisadiyyat və sənaye naziri onu da dedi ki, azad iqtisadi zonaların, sənaye parklarının yaradılmasını nəzərdə tutan xüsusi hüquqi sənədlərin qəbul edilməsi sahibkarlıq fəaliyyətində yeni mərhələnin başlanmasının bariz nümunəsidir.

Nəzərə çatdırılmışdır ki, muxtar respublikada xarici ticarətin inkişafında ciddi nailiyyətlər qazanılmış, 512 milyon ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmış, 37 xarici ölkə ilə ticarət əlaqələri qurulmuş, 29 növdə məhsulun ixracına nail olunmuşdur.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov bildirmişdir ki, bu gün ölkələrimiz müstəqil dövlətlər kimi bütün sahələrdə, xüsusən də iqtisadiyyat sahəsində uğurlu əməkdaşlıq edirlər. Bu baxımdan regional əməkdaşlıq məsələləri xüsusi önəm kəsb edir. Bu gün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyət göstərən digər qurumlar kimi, biznes dairələri arasında əməkdaşlıq platformasının yaradılmasına təkan verən Biznes Şurası da ölkələrimiz arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illiyi çərçivəsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Türkdilli Dövlətlərin Biznes Şurasının bir araya gələrək forum keçirməsinin əlamətdar hadisə olduğunu vurğulamışdır. Sahibkarlar Konfederasiyasının prezidenti qeyd etmişdir ki, 2009-cu ildə Azərbaycanın qədim Naxçıvan şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis edilməsi barədə qərar qəbul edilmiş və həmin təşkilatın toplantılarının keçirilməsi artıq ənənə halını almışdır.

Sonra Türkiyə Palatalar və Birjalar Birliyinin prezidenti Rıfat Hisarcıklıoğlu, Qazaxıstanın Beynəlxalq Ticarət Palatasının İdarə Heyəti sədrinin müavini Abdulla Kundakbayev, Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev, Qazaxıstan İşəgötürənlər Konfederasiyasının İdarə Heyətinin sədri Kadır Baykenov çıxış etmiş, türkdilli dövlətlər arasında iqtisadi əlaqələrin genişlənməsi istiqamətində görülən işlərdən, nəzərdə tutulan tədbirlərdən danışmışlar.

Tədbir çərçivəsində Türkiyə Qida Konfederasiyasının prezidenti Hakan Yüksəl "Regionda ərzaq təhlükəsizliyi çağırışları fövqündə regional aqrar inteqrasiya layihələri haqqında" təqdimatla çıxış etmişdir. Forum zamanı Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəflərinin təqdimatları olmuşdur.

Daha sonra Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü Toplantısı keçirilmiş və iş adamları arasında ikitərəfli görüşlər təşkil olunmuşdur.

Tədbir iştirakçıları Naxçıvan Muxtar Respublikasında bir sıra sənaye-istehsal müəssisələrinin – "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi", "Dizayn Sənaye Kompleksi", "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, "Cahan" AVM-in fəaliyyəti ilə tanış olmuşlar. Qonaqlar Naxçıvan şəhərinin tarixi-memarlıq abidələri ilə də tanış olmuş, Duzdağ Fizioterapiya Mərkəzini gəzmişlər.

Tədbir Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin möhtəşəm konsert proqramı ilə başa çatmışdır.

**Rauf ƏLİYEV**

## Mərkəzi Seçki Komissiyası seçki komissiyaları üzvləri üçün müşavirə keçirib

*Oktyabrın 24-də muxtar respublikada fəaliyyət göstərən dairə seçki komissiyalarının üzvləri və katiblik əməkdaşları, həmçinin məntəqə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilib. Müşavirəni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti ilə bağlı müşavirə iştirakçılarını məlumatlandırıb. Bildirib ki, oktyabrın 17-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası qarşıdan gələn bələdiyyə seçkilərində aşağı seçki komissiyaları üzvlərinin peşə hazırlığının artırılması, seçki sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirib. Bu layihənin davamı olaraq, oktyabrın 22-dən 24-dək dairə seçki komissiyalarının digər üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün regionlarda seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların keçilməsi nəzərdə tutulub. Bu gün keçirilən tədbirin əsas məqsədi məhz seçki komissiyaları üzvlərini seçki qanunvericiliyinin düzgün tətbiq edilməsi barədə məlumatlandırmaqdır.*

Qeyd olunub ki, bələdiyyələrə ilk seçkilər 1999-cu il dekabrın 12-də keçirilib. İlk bələdiyyələr 2000-ci il yanvarın 1-dən fəaliyyətə başlayıb. 2004-cü il dekabrın 17-də və 2009-cu il dekabrın 23-də Azərbaycanda ikinci və üçüncü dəfə bələdiyyə seçkiləri keçirilib və bildiyiniz kimi, bu il dekabr ayının 23-də növbəti bələdiyyə seçkiləri keçiriləcəkdir. İlk dəfə keçirilmiş bələdiyyə seçkilərində muxtar respublika üzrə bələdiyyələrin sayı 215 olub. Lakin 2009-cu ildə ölkə üzrə bir sıra xırda bələdiyyələrin birləşdirilməsi prosesi həyata keçirilib və bundan sonra yerli özünüidarə orqanlarının sayı muxtar respublikada 171-ə enib. Əgər 2009-cu ildə keçirilmiş bələdiyyə seçkilərində 171 bələdiyyəyə 1437 nəfər bələdiyyə üzvü seçilmişdisə, bu il keçiriləcək bələdiyyə seçkilərində 171 bələdiyyəyə 1453 nəfər üzvün seçilməsi nəzərdə tutulur. Bələdiyyə üzvlərinin sayının çoxalması muxtar respublikada əhalinin sayının artması ilə əlaqədardır. Belə ki, artıq bu il muxtar respublikada əhalinin sayı 434 min 450 nəfərə çatıb. Əhalinin bu cür artımı seçicilərin sayına da təsirsiz ötüşməyib və muxtar respublika üzrə seçicilərin sayı 2009-cu ildə keçirilmiş bələdiyyə seçkiləri ilə müqayisədə 4486 nəfər artıbdır. Son məlumata görə, seçicilərin sayı 256331 nəfərdir.

Seçkilərin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları ilə qarşılıqlı fəaliyyəti barədə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov bildirib ki, yerli icra orqanları dövlətin yerli idarəçiliyini həyata keçirirlər və bu zaman mərkəzdən verilən göstərişlər və özlərinin səlahiyyətləri çərçivəsində ərazinin problemlərini həll edirlər. Lakin idarəçilik yükünün azaldılması, idarəetmənin daha səmərəli olması dövlətin özünüidarəetmə funksiyasını bölüşdürməyə sövq edir ki, nəticədə, yerli özünüidarəetmə ortaya çıxır. Seçkilərin keçirilməsi, bir qayda olaraq, xalqın hüquq düşüncəsinin genişlənməsinə, onun siyasi aktivliyinin artmasına şərait yaradır.



Seçki hüququnun ümumi, bərabər, birbaşa, sərbəst, şəxsi və gizli səsvermə prinsipləri əsasında həyata keçirildiyini bildirən Cəlil Rüstəmov bu prinsiplər haqqında ətraflı məlumat verərək qeyd edib ki, bu prinsiplər bütün demokratik dövlətlərin seçki qanunvericiliyində təsbit olunan ümumqəbulolunmuş prinsiplərdir. Bunlarla yanaşı, qanunvericilikdə seçkilərin demokratikliyini təmin edən digər prinsiplər də nəzərdə tutula bilər.

Seçici siyahılarının dəqiqləşdirilməsi haqqında da danışan Cəlil Rüstəmovun sözlərinə görə, hər il seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı məlumatları məntəqə seçki komissiyaları dairə seçki komissiyaları vasitəsilə Mərkəzi Seçki Komissiyasına təqdim edir. Seçici siyahıları daimi və müvəqqəti seçici siyahıları formasında tərtib olunur. Seçicilərin daimi siyahıları hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada hər il mayın 30-dək təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilir. Bütün bu proseslərdə müvafiq icra hakimiyyəti orqanları seçki komissiyalarına qanunvericiliklə müəyyən olunmuş formada köməklik edirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini bələdiyyələrin fəaliyyətinin əsasları, bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsinin özünəməxsus xüsusiyyətləri, səsvermə və seçki prosesinin digər mərhələləri, yerli icra orqanları ilə seçki komissiyalarının qarşılıqlı fəaliyyəti barədə də tədbir iştirakçılarına ətraflı məlumat verib.

Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini, polis general-mayoru Səbuhi Novruzov “Seçkiləri əhatə edən dövrdə Daxili İşlər Nazirliyi orqanlarının rolu və fəaliyyət istiqamətləri” mövzusunda çıxış edərək qeyd edib ki, seçki kampaniyası dövründə və seçkilər günü vətəndaşların qanunla müəyyən olunmuş hüquqlarının pozulması, seçki komissiyaları və onların üzvlərinə təzyiq və təsir göstərilməsi, habelə ictimai qaydanın pozulması hallarının aradan qaldırılması ilə bağlı aidiyyəti təşkilatlarla yanaşı, daxili işlər orqanları qarşısında da mühüm vəzifələr durur. Seçkilərin mütəşəkkil və obyektiv keçirilməsi üçün yerli icra hakimiyyətləri, digər hüquq-mühafizə orqanları və ictimaiyyətlə əlaqələr genişləndirilib. Bələdiyyə seçkilərinə hazırlıq dövründə və seçki zamanı baş verə biləcək qanun pozuntularının qarşısının alınması, seçkilərin müvafiq qanunların tələblərinə uyğun təhlükəsizlik, demokratik şəraitdə keçirilməsi və bu məsələ ilə əlaqədar daxili işlər orqanlarının üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinin təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində xüsusi tədbirlər planı tərtib edilərək icraya yönəldiləcəkdir. Seçkidə səsvermə hüququna malik olan vətəndaşların siyahılarının dəqiqləşdirilməsinə başlanılıb. Cari il dekabr ayının 23-dək 18 yaşı tamam olan, səsvermə hüququ əldə edəcək 4854 nəfər gəncin şəxsiyyət vəsiqələri ilə təmini işinə nəzarət daha da gücləndirilib. Etibarlılıq müddəti bitmiş şəxsiyyət vəsiqələrinin yenisi ilə əvəz edilməsi və ilk dəfə səs verəcək, lakin şəxsiyyət vəsiqəsi olmayan şəxslərin şəxsiyyət vəsiqələri ilə təmin edilməsi işləri davam etdirilir. Qeydiyyat və şəxsiyyət vəsiqəsi qrupunun əməkdaşları əlillərə, xəstələrə və qocalara şəxsiyyət vəsiqələrinin verilməsi üçün evlərdə olaraq lazımi sənədləri toplayacaq və hazır olan şəxsiyyət vəsiqələri onlara şəxsən evlərində təqdim olunacaq. Müxtəlif səbəblərə görə yaşayış yerlərini dəyişən, qeydiyyatdan çıxan vətəndaşlar barəsində dairə seçki komissiyalarına mütəmadi olaraq yazılı surətdə məlumat verilir.

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, ədliyyə müşaviri Elnur İsmayılov “Bələdiyyələrin fəaliyyət keyfiyyətinin bələdiyyə üzvlərinin yenidən seçilməsinə təsiri” mövzusunda çıxış edərək bildirib ki, ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli özünüidarə sahəsində də ciddi irəliləyişlər olub. Artıq ölkədə bələdiyyəçilik ənənəsi formalaşıb, insanların iqtisadi, sosial və yerli əhəmiyyətli digər məsələlərlə bağlı bu quruma müraciətləri çoxalıb. Bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericilik bazası yaradılıb və bu iş mütəmadi olaraq təkmilləşdirilir. Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət mütəmadi olaraq davam etdirilir. Bunun nəticəsi olaraq, inzibati nəzarət qaydasında baxılan bələdiyyə aktlarının sayında artım müşahidə olunub, bu sahədə hüquq pozuntularının aradan qaldırılması xüsusi diqqət mərkəzində saxlanılmaqla bələdiyyələrə zəruri metodik köməklik göstərilib. Qeyd olunanlardan əlavə, qanunvericiliyin tələblərindən irəli gələn vəzifələrin düzgün və dürüst yerinə yetirilməsi üçün “arxiv işinin təşkili”, “bələdiyyə aktlarının qəbulu”, “vətəndaşların müraciətlərinə baxılması işinin yaxşılaşdırılmasına dair”, “yerli özünüidarəetmə sahəsində büdcə, əməkhaqqı, sosial təminat məsələləri ilə bağlı yeni qanunvericiliyin tətbiqi barədə” və sair mövzularda son illər 16-ya yaxın metodik vəsait hazırlanaraq bələdiyyə orqanlarına göndərilib.

“Seçki hüququ və onun təminatının qanunvericilik əsasları, seçki hüquqlarının məhkəmə müdafiəsi” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev vurğulayıb ki, seçki prosesində iştirak edən subyektlərin pozulmuş hüquqlarının vaxtında bərpa edilməsi, nəticə etibarı ilə, seçicilərə öz iradəsini sərbəst ifadə etməyə və ümumilikdə, seçkilərin ədalətli şəkildə həyata keçirilməsinə şərait yaradır. Vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin və hərəkətsizliyin baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edilə bilər. Şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına, Mərkəzi Seçki Komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) isə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər apelyasiya instansiyası məhkəməsinə şikayət edə bilərlər.

Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolundan bəhs edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Faiq Səfərov bildirib ki, seçki komissiyaları öz fəaliyyətlərində hər hansı dövlət və hakimiyyət orqanlarından, bələdiyyə qurumlarından, siyasi partiyalardan, qeyri-hökumət təşkilatlarından və başqa növ ictimai təşkilatlardan, digər hüquqi və fiziki şəxslərdən asılı deyillər. Seçki komissiyalarının işinə müdaxilə edən və ya təsir göstərən şəxslər Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar məcəllələrinə əsasən, məsuliyyətə cəlb edilirlər. Eyni zamanda seçki komissiyaları öz fəaliyyətlərində qanunun aliliyi prinsipinə əsaslanmalı, seçiciyə və seçki komissiyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət bəsləməli, onlara münasibətdə neytral və qərəzsiz olmalı, onların hər hansı birinin dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi başa düşülə bilən hərəkətlərə yol verməməlidirlər.

Tədbirə Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## “Regionda arıçılığın inkişaf perspektivləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans



*Naxçıvan Dövlət Universitetində “Regionda arıçılığın inkişaf perspektivləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.*

Universitetin müəllim və tələbələri ilə yanaşı, ölkəmizin digər universitetlərindən dəvət olunmuş mütəxəssis alimlərin, muxtar respublikanın aidiyyəti qurumlarının, arıçı sahibkarların iştirak etdiyi beynəlxalq elmi-praktik konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Rektor Azərbaycanda qədim tarixə malik arıçılığın X-XII əsrlərdə daha da inkişaf etdiyini, halallıq və zəhmət sevən əsas aqrar sahələrdən biri olduğunu bildirib. Qeyd olunub ki, regionda kənd təsərrüfatının digər sahələri kimi, arıçılığın da inkişafı dövlət qayğısı ilə əhatə olunub. Bu sahə ilə məşğul olan sahibkarlara dövlət tərəfindən güzəştli kreditlər verilir, arıçılıq məhsullarının idxal və ixracına əlverişli şərait yaradılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri, iqtisad üzrə fəlsəfə doktoru Müslüm Cabbarzadə “Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatına dövlət dəstəyi tədbirləri və arıçılığın inkişaf dinamikası” mövzusunda məruzə edib. Bildirilib ki, aqrar islahatların aparılması, yeni mülkiyyət münasibətlərinə əsaslanan təsərrüfat qurumlarının inkişafı istiqamətində görülmüş işlər kənd təsərrüfatında dinamik inkişafın əsasını qoyub. Naxçıvan Muxtar Respublikasında arı ailələrinin artırılması, eləcə də məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Bütövlükdə, 2000-2014-cü illər ərzində dövlətin maliyyə dəstəyi ilə 103 arıçılıq layihəsi həyata keçirilib, Sahibkarlığa Kömək Fondunun güzəştli kreditləri hesabına 6000-dən çox arı ailəsi alınıb. Bunun nəticəsidir ki, 1 yanvar 2014-cü il tarixə muxtar respublikada arı ailələrinin sayı 68705-ə çatıb və bir il öncəki göstəricini 5,4 faiz üstələyib. Qeyd olunub ki, ötən il 1304 ton bal istehsal edilib. Bu, 2012-ci ildəki müvafiq göstəricidən 11 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov məruzəsində arıçılığın gəlirli sahəyə çevrilməsi üçün arı ailələrinin bəslənməsi, çoxaldılması, məhsuldarlığının artırılması məqsədilə arı xəstəliklərinin vaxtında aşkarlanması, yaranma səbəblərinin aydınlaşdırılması və onlara qarşı görülməsivacib mübarizə tədbirlərindən bəhs edib. Qeyd olunub ki, arıçı sahibkarlar Dövlət Baytarlıq Xidməti tərəfindən arı xəstəliklərinin müalicəsi üçün pulsuz dərman preparatları ilə təmin olunurlar.

Elmi-praktik konfransda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ekologiya kafedrasının professoru Rauf Sultanovun, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbovun məruzələri dinlənilib.

Sonra konfrans öz işini “Arıçılığın inkişaf perspektivləri”, “Ekoloji təmiz arıçılıq məhsullarının istehsalı, emalı və dövriyyəsi”, “Naxçıvan Muxtar Respublikasında ətraf regionlarda yayılan təhlükəli arı xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri” mövzularında bölmə iclasları ilə davam etdirib.

## Məşğulluq tədbirinin növbəti ünvanı Culfa rayonu olub

Dünən Culfa Rayon Məşğulluq Mərkəzi tərəfindən növbəti əmək yarmarkası keçirilib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, tədbirdə mərkəzin direktoru Yalçın Hüseynovun, Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Qasımovun çıxışları olub. Çıxışlarda qeyd edilib ki, muxtar respublikanın bütün bölgələrində, eləcə də Culfa rayonunda təşkil olunan əmək yarmarkalarında işaxtaran vətəndaşlara boş iş yerləri təklif olunmaqla yanaşı, onların mövcud əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına və haqqıödənilən ictimai işlərə cəlb olunması da təmin edilir. Culfa rayonu əhalisinin məşğulluğunun gücləndirilməsi, işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılması və məşğulluq orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində təşkil edilən əmək yarmarkaları mühüm əhəmiyyətə malikdir.

İşaxtaran vətəndaş Pərvin Süleymanov tədbirin təşkilatçılarına öz minnətdarlığını bildirərək qeyd edib ki, bu qəbildən fəal məşğulluq tədbirləri rayon sakinləri tərəfindən maraqla qarşılanır, onların müvafiq işlə təmin olunmaq imkanlarını artırır.

20 dövlət və özəl müəssisədən 154 boş iş yerinin çıxarıldığı yarmarkada 25 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

## Hüseyn Cavid Poeziya Günü qeyd edilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş "Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən, hər il oktyabrın 24-ü Naxçıvan Muxtar Respublikasında "Hüseyn Cavid Poeziya Günü" kimi qeyd edilir.***

Dünən Hüseyn Cavid Poeziya Günü münasibətilə Naxçıvan şəhərində tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə şair-dramaturqun və onun ailə üzvlərinin uyuduğu məqbərəni ziyarət ediblər. Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov Cavidlər məqbərəsinin yaradılması və Hüseyn Cavid Poeziya Günü haqqında məlumat verib.

Tədbir Hüseyn Cavidin Naxçıvan şəhərindəki ev-muzeyində davam etdirilib. Giriş sözü ilə çıxış edən mədəniyyət və turizm naziri Sarvan İbrahimov böyük söz ustadının bəşəri ruhlu, həmişəyaşar yaradıcılığından, Cavid şəxsiyyətinə və irsinə dövlət qayğısından söhbət açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Yadigarın "Romantik poeziyamızın ölməz korifeyi", AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımovun "Hüseyn Cavidin yaradıcılığında sülh və barış ideyaları" mövzularında çıxışları olub.

Çıxışlarda qeyd edilib ki, qüdrətli romantik sənətkarın əsərləri ədəbiyyat və mədəniyyətimizin qızıl fonduna daxil olub. Hüseyn Cavid sənəti fikir və duyğular aləminin zənginliyi, obraz və xarakterlərinin əlvanlığı baxımından zaman və məkan, irq, milliyyət, din məhdudiyyəti ilə sərhədlənmir. Cavid yaradıcılığı əbədiyaşar söz sənəti kimi dünya durduqca daim insan mənəviyyatının zənginləşməsinə xidmət edəcək, bəşəri duyğularla və zəngin fikirlər dünyası ilə insanları düşündürəcəkdir. Müharibələrə nifrət, sülhə çağırış onun əsərlərinin əsas mövzularından olmaqla bu gün də müasirdir.

Tədbirdə şairlərdən Xanəli Kərimli, Elbəyi Maqsudov və Əbülfəz Ülvi böyük şairə həsr olunmuş şeirlərini söyləyiblər. Xalq artistləri Rza Xudiyev, Həsən Ağasoy, aktyorlardan Nurbəniz Niftəliyeva, Mirqabil Əkbərov şairin yaradıcılığından nümunələri bədii qiraət ediblər.

Sonra Hüseyn Cavid adına Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında şairin şeirlərindən ibarət bədii kompozisiya təqdim edilib.

Sonda şairin ev-muzeyinə baxış olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov iştirak edib.

**Əli RZAYEV**

*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası və Naxçıvan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə bu mövzuda dünən seminar-treninq keçirilib.*

## Kütləvi informasiya vasitələrində ədəbi dilin normalarına əməl edək

Muxtar respublikada fəaliyyət göstərən kütləvi informasiya vasitələri əməkdaşlarının iştirak etdikləri seminar-treninqdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Fərasət Əsədullasoyun "Teleradiolarda Azərbaycan ədəbi dilinin düzgün tətbiq olunması prioritet məsələdir", Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynovun "Mətbuat orqanlarında ədəbi dil normalarından istifadə", Naxçıvan Müəllimlər İnstitutunun tərbiyə işləri üzrə prorektoru, professor Sədaqət Həsənovanın "Kütləvi informasiya vasitələrində ədəbi dilin normalarından istifadə qaydaları", "Şərq qapısı" qəzetinin Baş redaktor müavini Səyyar Məmmədovun "Müasir ədəbi dilimizin tələbləri" mövzularında məruzələri dinlənilib. Məruzələrdə qeyd olunub ki, dilimiz öz zənginliyi ilə digər dillərdən əsaslı surətdə fərqlənir. Min illər boyu inkişaf yolu keçən dilimiz bu gün bizim ən qiymətli, heç nə ilə əvəz olunmayan milli sərvətimiz, milli pasportumuzdur. Bu qiymətli sərvətin özünəməxsusluğunu qorumaq, zənginləşdirmək, gələcək nəslə ərməğan etmək hər bir azərbaycanlının borcu və vəzifəsidir.

Bu baxımdan kütləvi informasiya vasitələrində çalışanların üzərinə daha böyük vəzifələr düşür. Ədəbi dilin düzgün tətbiqində, ədəbi dil normalarının tələblərinə əməl olunmasında kütləvi informasiya vasitələrinin əməkdaşları məsuliyyət hisslərini dərindən dərk edirlər.

Bununla belə, bu sahədə hələ də bir sıra nöqsanların olduğu vurğulanıb. Qeyd olunub ki, bu gün kütləvi informasiya vasitələrinin inkişafına göstərilən dövlət qayğısı yetərincədir. Belə qayğıdan istifadə edərək istər teleradiolarda, istər mətbuat orqanlarında çalışanlar mövcud olan nöqsanların aradan qaldırılması üçün axtarışlar aparmalı, öz üzərlərində ciddi çalışmalı, dilimizin zənginliyinin qorunmasında səylərini əsirgəməməlidirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Röyal Məmiyev çıxış edərək keçirilən seminar-treninqin əhəmiyyətindən danışıb. Bildirilib ki, ən ali milli dəyərlərimizdən olan ana dilimizə hörmətlə yanaşmaq, ədəbi dil normalarına düzgün riayət etmək hər bir jurnalistin vətəndaşlıq borcu olmaqla yanaşı, həm də onun fəaliyyətinin əsasını təşkil etməlidir.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Sosial müdafiə tədbirləri insanlara diqqət və qayğının ifadəsidir

***Naxçıvan Muxtar Respublikasında əhalinin, o cümlədən xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir.***

Cari ilin ötən doqquz ayı ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsi, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası, texniki bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təminatı, onların cəmiyyətə inteqrasiyasının, habelə asudə vaxtlarının səmərəli təşkili istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Muxtar respublikamızda aztəminatlı ailələrin sosial rifah halının davamlı olaraq yüksəldilməsi diqqət mərkəzindədir. Cari ilin 9 ayı ərzində bütün növ müavinətlərə 10 milyon 31 min 359 manat, o cümlədən ünvanlı dövlət sosial yardımına 2 milyon 584 min 392 manat, bütün növ müavinətlərə isə 7 milyon 446 min 967 manat vəsait sərf olunmuşdur. Hazırda muxtar respublika üzrə 2996 ailənin 11 min 849 ailə üzvünə ünvanlı dövlət sosial yardımı ödənilir.

Qeyd olunan dövr ərzində 523 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxsə evlərində sosial məişət xidməti göstərilmişdir. Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 138 şəxsin, Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 250 uşağın müalicəsi təşkil edilmiş, eyni zamanda onurğa və sinir xəstəlikləri olan məhdud fiziki imkanlı 6 şəxs Yunanıstan Respublikasına, sağlamlıq imkanları məhdud 6 uşaq valideynlərinin müşayiəti ilə Latviya Respublikasına, bu kateqoriyadan olan 15 uşaq isə Gürcüstan Respublikasının Acarıstan Muxtar Respublikasına müalicəyə göndərilmişdir.

Sağlamlıq imkanları məhdud 118 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilmiş, 143 şəxsə protez-ortopedik xidmət göstərilmiş, 260 şəxs texniki reabilitasiya vasitələri ilə təmin edilmiş, 50 məhdud fiziki imkanlı şəxsin sosial məişət şəraitinin yaxşılaşmasına, 22 nəfərin isə respublika daxilində müalicəsinə maddi köməklik göstərilmişdir.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək sağlamlığını itirmiş şəxslərə və 1941-1945-ci illər müharibəsi əlillərinə göstərilən yüksək diqqət və qayğının ifadəsi olaraq, bu kateqoriyadan olan 60 şəxs minik avtomobilləri ilə təmin edilmişdir.

Əlamətdar günlərdə müvafiq kateqoriyadan olan şəxslərin iştirakı ilə silsilə tədbirlər həyata keçirilmişdir. Təşkil olunan görüşlərdə, ümumilikdə, 1884 ahıl və sağlamlıq imkanları məhdud şəxsə bayram sovqatı və hədiyyələr təqdim edilmişdir. Həmçinin "Bilik Günü" münasibətilə keçirilən tədbirlərdə aztəminatlı sağlamlıq imkanları məhdud 246, o cümlədən distant tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud 19, eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant dərslərdə iştirak edən 7 uşağa məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları verilmişdir.

Keçirilən bayram tədbirlərində, həmçinin əsgərlər qarşısında sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu konsert proqramı ilə çıxış etmişdir.

Ahıllar evində də əlamətdar günlər münasibətilə tədbirlər təşkil olunmuş, sakinlər mütəmadi olaraq tibbi müayinədən keçirilmişlər. Eyni zamanda muxtar respublikanın ən uzunömürlü – 116 yaşlı sakini Qönçə Hümbətova ilə görüş keçirilmiş, ona hədiyyələr təqdim edilmişdir.

Sosial xidmət göstərilən tənha ahıllar evlərində ziyarət edilmiş, onların zəruri problemləri yerindəcə həll olunmuş, eyni zamanda onlar tibbi müayinədən keçirilmişlər.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində uşaq serebral iflicli, autizm və daun sindromlu uşaqların valideynləri ilə maarifləndirici görüşlər keçirilmişdir.

Məhdud fiziki imkanlı şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların istedadlarının üzə çıxarılması, intellektual səviyyələrinin inkişaf etdirilməsi, onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə tədbirlər – paralimpiyaçılar arasında stolüstü tennis, yüngül atletika, peyntbol, qolbol idman yarışları, sağlamlıq imkanları məhdud uşaqlar arasında intellektual və kinekt oyunları, "Oxu, qavra" adlı mütaliə, şahmat, xalq uşaq oyunlarından ibarət əyləncəli idman yarışları, "Naxçıvanım mənim" mövzusunda rəsm, əl işləri və musiqi müsabiqələri təşkil edilmişdir.

Məhdud fiziki imkanlılara göstərilən sosial xidmətlər günbəgün genişlənir və təkmilləşir. Belə ki, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən uşaqlar üçün Distant Tədris Mərkəzi istifadəyə verilmiş, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını sürətləndirmək məqsədilə Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılmış, görmə qabiliyyəti məhdud şəxslər üçün hər ay "Könül işığı" adlı brayl jurnalının nəşri təşkil edilmişdir.

Yay tətili dövründə sağlamlıq imkanları məhdud 47 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilmişdir. İstirahət müddətində onlar arasında idman yarışları, yaradıcılıq müsabiqəsi keçirilmiş, həmçinin sağlamlıq imkanları məhdud ifaçılar uşaqlar qarşısında konsert proqramı ilə çıxış etmişlər.

***Muxtar respublikada dinamik inkişafın təmin edilməsi xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial rifahının daha da yaxşılaşmasına geniş imkanlar yaradır.***

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

***Naxçıvan Dövlət Universitetində Avropa kompüter səviyyəölçmə sertifikatı Azərbaycan milli operator və test mərkəzləri layihəsi çərçivəsində görüş keçirilib.***

## Beynəlxalq səviyyəli sertifikat almaq üçün təlim kursuna başlanılıb

Qafqaz Universitetinin layihə ofisinin rəhbəri Üzeyir Bağırov çıxış edərək bildirib ki, dünyada kompüter savadlılığını təsdiq edən standartlar içərisində Avropanın Kompüterdən İstifadə Lisenziyası (ECDL) daha geniş yayılıb. Avropa və ABŞ-da standart kimi qəbul olunan ECDL sertifikatı informasiya texnologiyalarının əsas konsepsiyalarının mənimsənilməsini, fərdi kompüterlərdən və əsas tətbiqi proqramlardan istifadə biliyini təsdiq edir. Layihənin əsas məqsədi Azərbaycanda kompüter biliklərinin standartlarını müəyyənləşdirməkdir. Muxtar respublikada müxtəlif ixtisaslar üzrə ali təhsil alan şəxslər Naxçıvan Özəl Universitetində təməl, orta və ali səviyyəyə uyğun müəyyənləşdirilmiş qruplar şəklində hazırlıq kursu keçəcək, seçdikləri modul üzrə imtahan verdikdən sonra ECDL sertifikatı əldə edəcəklər. Orta səviyyə sertifikatı alan və 3 ali səviyyə imtahanından müvəffəqiyyət qazananlar ECDL ekspert səviyyə setifikatı alacaq.

Qeyd olunub ki, ECDL 24 mindən çox təlim və imtahan mərkəzində 43 dildə tədris və imtahan aparır. Bu tədris prosesinin indiyədək dünyada 13 milyondan çox iştirakçısı olub. ECDL-in təqdim etdiyi sertifikat 149 ölkədə tanınır. Üzeyir Bağırov müxtəlif təlim modullarında tədris olunacaq mövzular, imtahanların onlayn şəkildə keçirilməsi və qiymətləndirmə, əldə olunan kompüter biliklərinin tətbiq sferaları barədə də məlumat verib.

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid çıxışında qeyd edib ki, bu ali təhsil ocağında elektron universitet yaradılması, distant təhsilin tətbiqi ilə bağlı mühüm işlər görülüb. Universitetin İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin, elektron kitabxana və müxtəlif internet mərkəzlərinin fəaliyyətləri, virtual əməkdaşlığın inkişafı məqsədilə onlayn bağlantılar, beynəlxalq videokonfrans və simpoziumların təşkili buna bariz nümunədir.

Tədris işləri üzrə prorektor Surə Seyid keçiləcək təlimdə iştirakın tələbələrin müasir dövrün tələbləri səviyyəsində ixtisaslaşmış kadr kimi formalaşmasında mühüm əhəmiyyət daşıdığını bildirib.

**Mehriban SULTAN**

## Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə (vəkilliyə) qəbul məqsədilə müsabiqə elan edilir

Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən kollegiya üzvlüyünə (vəkilliyə), həmçinin muxtar respublikanın rayonlarında yaradılacaq vəkillik qurumlarında vəkilliyə qəbulla əlaqədar müsabiqə elan olunur.

Müsabiqədə (ixtisas imtahanlarında) ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Vəkilliyə namizədin hazırlığının, bilik səviyyəsinin, ümumi dünyagörüşünün, vəkil vəzifəsinə yararlı və layiqliliyinin müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyası ilə birlikdə testdən və şifahi müsahibə imtahanlarından ibarət ixtisas imtahanları keçiriləcək, ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında icbari təlimdə (30 gün) iştirak edəcəklər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Rəyasət Heyəti tərəfindən müəyyən olunmuş formada ərizə*

*2. Kadrlar uçotunun şəxsi vərəqəsi*

*3. Tərcümeyi-hal*

*4. Ali təhsil haqqında diplomun surəti (diplomun əsli sənədlərlə birlikdə təqdim edilməlidir)*

*5. Əmək kitabçasının təsdiq edilmiş surəti*

*6. Şəxsiyyəti təsdiq edən sənədin surəti*

*7. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış*

*8. Sağlamlıq haqqında arayış*

*9. 3x4 santimetr ölçüdə 4 ədəd fotoşəkil*

*10. Hərbi biletin surəti.*

Sənədlərin qəbulu 1 noyabr 2014-cü il tarixədək hər iş günü saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 5 ünvanında – Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti Aparatının qəbul otağında aparılacaq.

***Əlaqə vasitələri:***
***telefon: (036) 545-58-06, 550-64-89***
***e-poçt: vekillerkollegiyasi@nakhchivan.az***

ŞƏRQ qapısı

**Baş redaktor:**
TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 903**